*AMEA*
*Filologiya və Sənətşünaslıq, 2019, № 2*
*Səhifə: 188-194* *ISSN: 2663-4368*

**UOT:** 398

Fəridə Vəliyeva*

# SULTAN VƏLƏD YARADICILIĞI TƏSƏVVÜF İLAHİ EŞQ VƏ FOLKLOR KONTEKSTİNDƏ

**Xülasə**

Məqalədə Sultan Vələdin həyat və yaradıcılığı folklor ənənələri və təsəvvüf zəmininde araşdırılıb. Əsərlərinin yazılma tarixi və mövzusu ilə bağlı qısa məlumat verilərək, şair haqqında ümumi təsəvvür yaradılır. Sultan Vələd yaradıcılığında davam etdirilən ənənələr folklor və təsəvvüflə əlaqədə təhlil olunur.

Sultan Vələdin türk dilində yazdığı mənzumələrindən misallar gətirilir, folklor motivləri seçilib sistemləşdirilir. Mövləvilik təriqətinin yaranması və yayılmasında Sultan Vələdin fəaliyyət xidmətlərinə diqqət yönəldilir. Şairin təsəvvüf anlamındakı bəzi görüşlər təhlil olunur. Ruh və cisim, onların bir-birinə nisbəti, əksikliklərі və barışması çevrəsində Sultan Vələdin dünyaduyumu və s. məqalədə tədqiq olunur. Sultan Vələd yaradıcılığında təsəvvüf təliminə uyğun olaraq təriqət yolçusunun son məqsədi haqqa, həqiqətə və allaha qovuşma yolları araşdırılır. Məqalədə Sultan Vələd yaradıcılığında sufi təliminə uyğun "salıkin əsl həyatının sonunun "fəna" yox olma, ilkinliyə qayıtma və ya qovuşma kimi tərəfləri də təhlil olunur.

Məqalədə dini rəvayətlər və mifoloji qaynaqlardan başlanğıc götürən element və motivlər də tədqiq edilib üzə çıxarılır. Bundan əlavə, xalq hikməti, deyimlər və atalar sözləri də araşdırmaya cəlb olunur.

**Açar sözlər:** Sultan Vələd, tərki-dünya, vəhdəti-vücud, mütəsəvvüf, pak, mistik, irfani

**Giriş.** XIII əsr türk dünyasına bir çox ölməz sənətkarlar bəxş etmişdir. Hacı Vəli Bektaş, Mövlana Cəlaləddin Rumi, Əhməd Fakih, Dehqanı, Səyyad Həmzə, Yunus Əmrə, Şeyx İbrahim Gülşəni Bərdəi, Qutbəddin Ətiqi Təbrizi, Zülfüqar Şirvani kimi görkəmli sənət ustaları məhz bu əsrdə yaşamışlar. Mövlanə Cəlaləddin Ruminin böyük oğlu Sultan Vələd də həmin əsrdə – 1226-cı ildə indiki Qaraman şəhərində anadan olmuşdur. Sufi mühitində yetişmiş, 1312-ci ildə Konyada dünyasını dəyişmiş və atasının yanında "Yaşıl Türbə"də dəfn olunmuşdur. Sultan Vələd təhsilini Şamda tamamlasa da, onun yaradıcılığına və dünyagörüşünün formalaşmasına atasının böyük təsiri olmuşdur.

Sultan Vələdin ilk məsnəvisi olan "İbtidanamə"də onun əsl adının Bahaəddin Məhəmməd Vələd, Mövlana Cəlaləddin Məhəmməd oğlu olduğu göstərilir [1, s.3].

Mövlana kiçik yaşlarından Sultan Vələdi diqqətə almış, sonsuz məhəbbətlə sevmiş və ona Hz. Peyğəmbərin İmam Həsənə, əmisi oğlanları Cəfərə buyurduqları "Sən yaradılış və huy baxımından insanların mənə ən çox bənzəyənisən" hədisini oxumağının həvəsində olmuşdur [1, s.2].

Sultan Vələd yaradıcılığında Mövlana coşğunluğu olmasa da, atasının dünyaduyumu, təfəkküründəki özünüifadə yolu, mülahizələri, təsəvvüf baxışları çox müşahidə olunur.

Məlumdur ki, Cəlaləddin Rumi əsərlərini dövrün tələblərinə uyğun olaraq fars dilində yazmışdır. Oğlu Sultan Vələdin isə əsərlərinin arasında türk dilində yazdığı bir çox mənzumələri vardır. Həmin mənzumələr təkcə dil baxımından yox, həm də xalq hikmətlərinin və dini rəvayətlərin tərbiyəvi xüsusiyyətlərinin təbliği baxımından çox dəyərlidir. Şairin "İbtidanamə", "Rübabnamə", "İntidanamə" adlı məsnəviləri ilə yanaşı, qəzəl və rübailərindən ibarət böyük bir divanı və "Maarif" adlı mənsur bir əsəri də əlimizə gəlib çatmışdır. Fars dilində yazılmış bu əsərlər arasında "İbtidanamə", "Rübabnamə" və Divanında türkcə beytləri də vardır ki, həmin beytlər bir çox tədqiqatçılar tərəfindən seçilmiş, ardıcıl şəkildə olmasa da, təhlil

* Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Filologiya üzrə fəlsəfə doktoru. E-mail: feridehicran60@mail.ru



edilmişdir. Ancaq bunu da nəzərdən qaçırmaq olmaz ki, ümumiyyətlə, Sultan Vələd yaradıcılığı bütöv bir monoqrafiya kimi incələnib, araşdırılmamışdır. Bunu onun yaradıcılığı ilə maraqlanan, türkcə mənzumələrini toplayan tədqiqatçılar da inkar etmirlər. "XIII yüzyılda Anadoluda yaşamış olan büyük mütəsəvvüf şair Mevlane Cəlaleddin Ruminin oğlu Sultan Vələd haqqında tam bir monoqrafiya bu güne kadar kaleme alınmış değildir" [2, s.1]. Lakin Sultan Vələdin əsərlərindən toplanan bir neçə hissədən ibarət türk dilində yazılmış beytləri "Selcuklu beytleri" adı ilə hələ keçən əsrdən elm aləminə məlumdur. Onun 1291-ci ildə yazdığı "İbtidaname" əsərindən "76", "Rübabnamə"dən isə "162" türkcə beyt qeydə alınmış, divanındakı beytlərin sayı isə dəqiq vurğulanmasa da, Vələd Çələbinin çap etdirdiyi "Divanı-Türki-Sultan Veled" nəşrində əvvəl "15" türkcə beyt, sonra isə Ferudin Uzlukun nəşrində "28" türkcə beyt göstərilmişdir. Ümumiyyətlə, Sultan Vələdin əsərləri üzərində aparılan kiçik təhlillərdə ciddi fərqli nüanslar müşahidə olunur. Bu, daha çox ayrı-ayrı nüsxələrdə türk dilində yazılan beytlərin hansı saylı əlyazmada neçənci beytdən sonra başlaması fərqində özünü göstərir (bu, təbii ki, başqa bir araşdırmanın mövzusudur).

Sultan Vələd yaradıcılığı ilə maraqlanan E.Dinison Ross, İstanbul əlyazması üzərində tədqiqat aparmış, Vyana əlyazmasına aid (V): 767\1365-ci ildə üzü çıxarılan 1-ci hissənin sonundakı "156" türkcə beyt üzərində isə V.J.Homer araşdırma aparmış, onları alman tərcümələri ilə birlikdə öz anlayışına uyğun hərəkələmişdir. Daha sonra isə V.F.Bernhauer Sultan Vələd və Cəlaləddin Rumi haqqında məlumat verərək, Veskerhauserin işində bəzi düzəlişlər aparmış və eyni cildə Fleischner yeni açıqlamalar və əlavələr etmişdir. Nəhayət, V.Radlov mətni olduğu kimi yarımçıq şəkildə nəşr etdirmiş, fonetik qaydaların üzərində açıqlamalar vermiş, qrammatik şəkilləri haqqında məlumat verərək mətnin rus hərfləri ilə tərcümə yazısını hazırlamışdır. Veskernauser, Bernhaver və Fleischner incələmələri ortaya heç bir yenilik qoymasa da, Radlovun araşdırması bugünkü anlayışımıza bəzi çatışmazlıqları nəzərə almasaq, xeyli yeniliklər gətirə bilmişdir. Bundan sonra F.E.Korş anadilli türk şeirinin inkişafında xalq üslubunda yazan bir çox şairlərlə yanaşı, Sultan Vələdin də adını çəkmişdir [3, s.8, 10].

Ümumiyyətlə, Sultan Vələd yaradıcılığı haqqında ən dəqiq məlumatlar daha çox atası Mövlana Cəlaləddin Ruminin əsərlərinə istinadən toplanmışdır.

Sultan Vələdin Mövləvi təriqətinin şeyxi olması, mövləviliyi müxtəlif böhranlardan qoruması, hətta mövləvilik bir təriqət olaraq onunla başlamışdır kimi fikirlərin yaranmasına səbəb olmuşdur. Şair daim atasının (eyni zamanda Şeyxinin) təriqətini yaymışdır. Onun "İbtidanamə" əsərində bu, daha çox müşahidə olunur. Əsər başdan-başa tərbiyəvi mövzuda yazılmış xalq hikməti, dini rəvayətlər toplusudur. "İbtidanamə" əsəri peyğəmbərin hədisləri ilə başlayır. Sultan Vələd yaradıcılığında atasını ehtiva etsə də, onu əsla təkrarlamır və əsərlərində bir orijinallıq diqqəti cəlb edir. Şair bu əsərində peyğəmbərin fikirlərini öz qafiyələrində təlmih yolu ilə belə açıqlayır:

*Bu hədisi buyurdu Peyğəmbər*
*Kankı kişi ki dırlığın ister,*
*Kendöizinden gerek kim ol öle,*
*Dırlığım menasın ölüp bula!*

*Bu hədisi buyurub peyğəmbər*
*Hansı insan ki diriliyin istər*
*Özlüyündə gərək o ölə,*
*Diriliyin mənasın öləndə bilə [1, s.10].*

Sultan Vələdin "Rübabnamə" əsərində insanı dərindən düşünməyə sövq edən təkrarsız fikirləri diqqəti daha çox cəlb edir:

*Gözümü aç, kim sini bellü görem,*
*Tamla gibi denize girem duram.*
*Nete kim damla denize katılır.*
*İki qalmaz damla deniz bir olur.*
*Ben dakı tamla kibi deniz olam,*
*Ölmeyem, deniz kibi diri kalam*

*Gözümü aç ki səni bəlli görüm*
*Damla kimi dənizə düşüm, qalım*
*Necə ki damla dənizə düşür*
*İki qalmır, damla dəniz qarışır.*
*Mən də kaş damla tək dəniz olam*
*Ölməyəm, dəniz kimi diri qalam [2, s.18].*

Məlum həqiqətdir ki, "Vəhdəti vücud" fəlsəfəsinə görə, yeganə bir varlıq varsa görünməz və görünən, yəni mahiyyəti görünməz olsa da, aynası kainat olan Allahdır. Sultan Vələd ümumiyyətlə irfani, fəlsəfi təfəkkürü və təsəvvüfi baxışları ilə arifanə bir tərzdə tanrıya bağlanmağın vacibliyini bütün yaradıcılığı boyu təkrarlasa da, bu məqsədi hər dəfə yeni bir tərzdə, yeni bənzətmə və təkrarsız beytlər yaratmaqla izhar edir.

Təbii ki, şair burada insanın ilkinliyə qayıtma, aliləşmə, bütövləşmə məqamlarına da işarə edir və bu qayıdışın yalnız kamillik mərhələlərindən keçməklə, bəsirət gözünün açılmasıyla mümkünlüyünü vurğulayır. Keçilən yolun sonunda fəna damla ilə dənizin qovuşması var. Şairin fikrincə, ali həqiqətlər dünyasına keçid mərhələsi mütləqdir və burada damla ilə dənizin qovuşmaq məqamını təsvir edərkən damlanın dənizə düşüb itmədiyini, dənizdə bütövləşərək dəniz olduğunu göstərir. Bu təsvirlə şair insanın Allaha qovuşması məqamının müqayisəsini yaradır. İnsan öz pak əməlləri ilə su damlası kimi təmiz, işıqlı olarsa, öz parçası olan tanrısına qovuşa bilər. Bu qovuşma elə damlanın dənizə qovuşması kimidir.

Bu qovuşma prosesi XIII-XV əsrlər mütəsəvvüf şairlərinin çoxunun əsərlərində fərqli obrazlarla təqdim olunur. "XIV əsr təsəvvüf şairlərindən olan Gülşəhri "Məntiqüt teyr" əsərinin sonunda həmin anı, quşların Simurqun yanında yoxolma, yəni Simurqda bütövləşmə məqamı ilə açır və bu qovuşmanı isə yenidən kölgənin günəşdə itməsi, yəni ona qovuşması müqayisəsində verir. "Nihayet Hepsi Simürğda yok olur. Gölge güneşte kayb olduğu gibi" [4, s.16].

Şair bəzən Allaha çatmaq yönündəki gedişatı göstərmək üçün fikirlərini xalq hikmətləri, atalar sözləri, dini rəvayətlərlə təsdiqləyir. "İbtidanamə"nin 21-ci beytində deyir:

*Ol bünardan ki, Xızır su içdi,*
*Diri koldı o nefsını biçdi*
*İçirəm baqu sana ki kurtula sen*
*Tanrı yolun onun kibi bula sen*

*Bünardan ki, Xızır su içdi*
*Diri qaldı o nəfsini biçdi.*
*Deyirəm sənə ki, qurtulasan*
*Tanrı yolun onun kimi tutasan [1, s.12].*

Xızırla bağlı bu rəvayətin fərqli bir çaları Müqəddəs "Qurani-Kərimdə" də böyük mötərizə arasında izah kimi yer alır [5, s.63].

Əslində isə türk xalqlarının, o cümlədən azərbaycanlıların arasında çox geniş yayılmış "Xızır" Azərbaycan folklor epik ənənəsində özünəməxsus yeri olan bir obrazdır. Bu haqda Mirəli Seyidov "Azərbaycan mifik təfəkkürünün qaynaqları" kitabında faktlara əsaslanan elmi əhəmiyyətli araşdırma aparmışdır [6, s.105, 107].

Naxçıvanda və Borçalıda Xızırla bağlı mərasimlər keçirilir. Azərbaycanda tez-tez xatırlanan Xızır obrazı yazın gəlişi prosesi ilə bağlı mərasimlərdə Qarabağ bölgəsində də çox tez-tez yad edilir:

*Xızır gəlir yaz gətirir,*
*Günəşin odun az gətirir.*
*İndi qızına bilməsək də,*
*İstinin çoxun yay gətirir [7, s.1].*

"Oğuznamə"də yer alan folklorla bağlı bəzi deyimləri də "Nəsibində var isə, qarşıqında cıda gələ" [8, s.68], "Qismət olsa gəlib keçər yanından" [9, s.8] və s. kimi xalq hikmətləri Sultan Vələd yaradıcılığında daha poetik, axıcı, qafiyəli bir şəkildə səslənir:

*Nə balıqlardır ol deniz içrə!*
*Ger sənə tanrı o sudan içirə [1, s.2].*

Ümumiyyətlə, Sultan Vələd xalq içərisində geniş yayılmış müxtəlif səpkili atalar sözlərinə, xalq deyimlərinə çox tez-tez müraciət edir, məqsədi isə fikirlərinin iç məzmununu və fikir arxasındakı irfani təsəvvüf və əxlaqi-tərbiyəvi ideyaları oxucuya poetik yolla təlqin etmək idi. Şair mənzumələrində "dost-dosta tən gərək, tən olmazsa gen gərək" [9, s.93], "dostunu göstər, səni tanıyım" [9, s.94], "taylı tayını tapmazsa, günü ah-vayla keçər" [9, s.22] kimi atalar sözlərinin ideya-məzmununu alaraq özünəməxsus üslubla çox fərqli, orijinal beytlər yaratmışdır:

*At ilə bilgil, deve cüft olmadı,*
*Eyle kim Yağuz edən gey bulmadı.*





*At ilə dəvə bir yerdə cütləşmədi,*
*Bunu nə düşmən, nə də dost görmədi.*

*Hər nəsə layiq gərək kim cift ola,*
*Kanı ol uslu, ki, bu sözden tola*
*Hər nə olsa gərək layiqi ilə cüt ola,*
*Hanı o ağıllı ki, bu sözdən ola [2, s.23].*

Mənzumələrinə gətirdiyi atalar sözləri, deyimlər və hikmətlərin yalnız ideyasını götürən şair, bəzən götürdüyü hər hansı bir nümunə ilə yeni bir ideya yaradır. Aşağıdakı beytə diqqət edək:

*Kim ki biri iki görür şaşıdır,*
*Sözünü eşitməgil, kulmaşıdır.*
*Kim ki biri iki görür, çaşıdır,*
*Sözünü dinləmə o, kulmaşıdır [1, s.25].*

Qarabağ bölgəsində çox geniş yayılmış "Ay qız çaşısan, yoxsa kulmaşı" [7, s.13] kimi səslənən bir xalq deyimi ifadə olunur ki, hər kəs bir işi yanlış edərsə, o zaman qarşı tərəf ona kinayə ilə belə müraciət edər. Lakin Sultan Vələd burada daha dərin fəlsəfi-irfani bir məqsəd axtarır, "tək olanı iki görmə" deməklə, Tanrı təkdir, mütləqdir, onun şəriki yoxdur fikrinə işarə edir. Bu görüş bütün təsəvvüf ədəbiyyatında yer alsa da, Sultan Vələd təqdimatında folklordan istifadə yolu ilə daha maraqlı və dərin məna və poetik gözəllik kəsb edərək açılır.

Söz, sözün qüdrəti, sözə verilən qiymət öncə "Atalar sözləri", folklor nümunələri arasında, sonralar isə klassik ədəbiyyatda çox geniş yer almışdır və elə bir qüdrətli söz ustası yoxdur ki, "söz"lə bağlı müdrik fikirləri olmasın. Lakin Sultan Vələd sözün qüdrətinə, onun ifadə tərzinə o qədər fərqli üsulla yanaşır ki, özündən əvvəlki mütəfəkkirləri təkrar etmədən ortaya orijinal bir fikir qoyur:

*Yüz olursa harifler, bir söz olur,*
*Sözler ilə aqibət bir göz olur.*
*Yüz hərfin içində bir söz olur,*
*Söz aqibətdə bir göz olar [2, s.26].*

*Söz yığılıb aqibətdə göz olur.* Və ya 6-cı beytdə deyir:

*Uslu kişinin malı sözler olur,*
*Malını verir bu sözləri alur.*
*Ağıllı insanın dövləti söz olur,*
*Dövlətini verib sözləri alır [1, s.17].*

Bu misraları oxuduqda istər-istəməz yadımıza "insanı geyimi ilə qarşılayıb, ağlı, danışığı ilə yola salarlar" xalq məsəli düşür. Müəllif "söz var, dağa qaldırar, söz var, dağdan endirər" [9, s.173] "Söz insanı həm ucaldar, həm alçaldar" kimi atalar məsəli və xalq deyimini çox incə bir üsulla aşağıdakı kimi vurğulayır:

*Harf içinde bu kadar manı sığar,*
*Bu söz ila uslu yuxarı ağar.*
*Hərf içində bu qədər məna sığar,*
*Ağlı olan sözlə yuxarı qalxar [2, s.19].*

Rübabnamədə səsləndirdiyi bu fikirlərində şair bir ariflik mövqeyi də arayır. Təbii ki, sözün yerli-yerində deyilməsi, üsullu, axarlı, təmkinli ifadəsi daha kəsərli olar, daha tez təsir edər. Bu baxımdan Sultan Vələd sözün deyilmə üsuluna çox qiymət verir, sözün deyiliş tərzini vacib şərtlərdən hesab edir. Oxucusunu xalq hikmətində söyləndiyi kimi, deyilən "hər sözə inanma"mağa, batinə varmağa çağırır:

*Sözlerin göz, sözlerin söz sanmagil,*
*Dükeli yanlış durur, inanmagil.*
*Hər sözü söz, hər gözü göz sanma sən*
*Çox zaman yanlış olur, inanma sən [2, s.26].*

Sultan Vələd yaradıcılığında çox düşündürücü məntiq və fəlsəfi bir yanaşma var. Öz işini bilən, sözünü ehtiyatla söyləyən, özünə diqqət edən, sözü yerində işlədən insanın sözü daha kəsərli, təsirli olur. Çox sözün, çox fikrin söylənməyindən və ya dinlənilməyindənsə, bəsirət gözünün açıq olmasına daha çox önəm verən şair deyir:

*Söz onundur, kim acuqdur gözləri,*
*Ol nə derse, Tanrıdendir sözleri.*
*Söz sahibinin açıqsa gözü,*
*Hər nə desə, qeybdəndir bil sözü [2, s.27].*

İnsan əgər kamillik dərəcəsinə çatırsa, nəzərlərini hansı səmtə yönəltsə, Tanrı gözəlliyi ilə qarşılaşar, onu dərk edər və görər. Yəni ilahi qüvvə öz camalını aləmi yaratmaqla göstərmişdir. Aləmi dərk etmək, duymaq, onun yaranışı-

na heyrətlə baxmaq və yarananda Yaradanı seyr etmək bəsirət gözünün açıqlığına dəlalət edir.

Şairin irfani-fəlsəfi, əxlaqi-etik fikirlərinin tərcümanı olan xalq rəvayətləri, ibrətamiz hekayələr, atalar sözləri onun yaradıcılığında xüsusi aparıcı mövqedədir. Müəllif öz dünyaduyumunun açımında xalq bədii təfəkkürünün zəngin nümunələrinə ardıcıl şəkildə müraciət edir. Xalq yaradıcılığı nümunələri, dini rəvayətlər əslində onun nəzəri-irfani fikirlərini çatdırmaq üçün dəyərli bir vasitə idi. O, bu üsulla təlqin etmək istədiyi fikri məharətlə təsdiqləyir, oxucusunda dərin inam yarada bilir.

Yaradıcılığında istifadə etdiyi "Əjdaha", "Şeytan", "Div" kimi folklor mənşəli obrazlar vasitəsilə yaratdığı əsrarəngiz poetik aləmdə də şair yalnız haqqa çatmağın yollarını arayır:

*Kön savaşı siz bu gün, şeytan başını dögün,*
*Sud biği u bal biği hoş karulun bir-bir ile [2, s.30].*

Sultan Vələd XIII əsrin bütün mütəsəvvüfləri kimi, təkcə təsəvvüf şairi deyil, həm də əxlaqi öyüdlər verən bir mütəfəkkirdir. Onun yaradıcılığında mistik, fəlsəfi duyum, şeiriyyət və nəsihət öz təzahürünü vəhdət halında tapır. Həsədi, kini, paxıllığı, nəfsi və s. kimi qəbahətləri müdrik xalq məsəllərini, dini hekayətləri, Quran ayələri və hədislərdən etdiyi təlmihləri bir araya gətirərək tənqid edir. Şeirlərində ilahi sifətlər aşılayan, müsbət keyfiyyətlər yaradan hikmətlərə daha çox yer verir. Nuh peyğəmbər, Adəm ata, İsa və Musa peyğəmbərlərlə bağlı söylənən və eyni zamanda müqəddəs "Quran-i-Kərim"də yer alan demək olar ki, əksər ayələrdən bəhrələnir:

*Nuh için tutan kamu kafirleri*
*Boğdu sudan komadı kimse diri*

Və ya

*Hud için yel kırdı ol münkirleri,*
*Tağa taşa urdı ol kafirleri [2, s.20].*

Nuh Əleyhissəlamın hekayəti geniş yayılmış dini rəvayətlərdən biridir. Müqəddəs "Qurani-Kərim"in 28-ci surəsində də Nuhla bağlı hadisədən bəhs olunur. Rəvayətin məzmununda Nuh peyğəmbərlə qövmü arasında gedən mübarizədən sonra Nuhun Allahdan diləyi, eşidən Tanrının göstərişi ilə Palıd ağacından gəmi düzəltməyi, Allahın əmri ilə düzəltdiyi üç mərtəbə gəmiyə hər canlıdan bir cüt götürməyi və ən aşağı mərtəbəyə quşları, orta mərtəbəyə heyvanları yerləşdirməyi, özünün isə Bəni Adəm nəslindən olanlarla bərabər, üst mərtəbədə yerləşib yola düşməyi göstərilir. 600 yaşı olan Nuh 40 gün, 40 gecə suyun üzəri ilə yol gedir. Gəmi dağlardan da yüksəkliyə qalxan dalğalarla üzürdü. Hətta Nuhun oğlu dağa sığınmaq istəyində olur, dalğalar Nuhun oğlunu da suya qərq edir. Nuhdan və onunla gəmidə qalanlardan başqa hamı boğulur. Gəmi yer üzərində uzun-uzadı dolaşır, gəlib müqəddəs torpağa – Məkkə məscidi ərazisinə çatır, orada dayanır.

Təbii ki, qaynaqlara, o cümlədən dini rəvayətlərə bələd olmadan Sultan Vələd yaradıcılığında əksini tapan bu motivlərin mənasını da anlamaq çətin olardı. Sonra şairin "Rübabnamə"də Adəm ata və Fironla bağlı Məhəmməd Mustafanın ayı yarıb düşmənlərdən göyü ayırdığını, – bu cür rəvayətləri şərh etməsi də çox maraqlı və düşündürücü ifadələrdə əksini tapır:

*Musi elinden nete oldu asa,*
*Düşmeninün gürligine ejdeha.*
*Nete oldu ğark Firovun lalin,*
*Eyle kim işitdün ol itün cavin? [2, s.19]*

Yuxu arxetipi ilə bağlı motiv və elementlər də şairin yaradıcılığında mühüm yer tutur:

*Uykuda gör canınu, kanda gider,*
*Sinsüz anda can nece işler eder.*
*Yuxu görərkən, can bədəndən gedər,*
*Bədənsiz anda can nə işlər görər [2, s.20].*

Mövləvilik təriqətində yuxunun xüsusi funksiyası var. Burada şair yuxu prosesində ruhun [2, s.21] candan ayrılma məqamını mövləviliyə uyğun şəkildə təqdim edir. Lakin bu münasibət də ruhun yatarkən bədəndən ayrılıb seyrə çıxması inancı folklorda da geniş yayılıb. Elm aləmində hələ qəti cavabını almayan yuxu prosesini əslində şair folklor nümunələrinə uyğunlaşdıraraq izah edir. Çünki yuxu arxetipinin folklorda geniş açıqlaması və yozumları var:

*Sen yatıcak ğevdeden canun uçar,*
*Kuş gibi, kanda dilerse, yer icer.*
*Gendüsenden yuz süret, bir can olur,*
*Sehr olur, bazar olur, dukkan olur.*
*Gendüden hem yer olur, hem gök olur,*
*Can oyanukdur, eğer gevde yatur [2, s.22].*

Ümumiyyətlə, yuxu arxetipinə XIII əsr anadilli türk mütəsəvvüflərinin əsərlərində çox geniş yer verilir. İstər Hacı Vəli Bektaş, istər Yunus Əmrə, istərsə də Sultan Vələd yaradıcılığında tən və ruh anlayışı ilə bağlı fikirlərin açıqlanmasında yuxu motivinə xüsusi yer ayrılır. Yuxunun ruhla bağlı tərəflərinə toxunulur, onun mifik-mistik mahiyyətini açmağa təşəbbüs edirlər. Yuxu inancı bütün tarixi dövrlərdə diqqəti cəlb edib, insanları ayıq şüurla qavranılmayan aləmlə bağlayan vasitə kimi qiymətləndirilib. Odur ki, nağılların, dastanların süjet xəttində xüsusi motiv olan yuxugörmə, yuxuda buta verilməsi, yol göstərilməsi kimi məsələlər görkəmli sənət ustalarının nəinki nəzərindən qaçmayıb, onları bu haqda düşünməyə də sövq edib. Bu gün belə elm aləmində tam mənası ilə açılmayan yuxu prosesinə XIII əsrdə aydınlıq gətirmək istəyən görkəmli şəxsiyyətlər arasında Sultan Vələdin olması da təəccüb doğurmur. Mükəmməl təhsil görmüş şairin aydınlar sırasında olması təkkədə bir arada olan insanlarla müzakirə və sairə münasibətləri onun bu cür məsələlər üzərində düşünməyinə əsas verir.

Şair eşq anlamını da Rübabnamənin ana xəttinə çəkir. Eşqlə bağlı mövzular hələ qədimdən ədəbiyyatın aparıcı xətlərindən birini təşkil edir. Dastan, nağıl, rəvayət və s. folklor janrlarında öz həllini tapan bu mövzular sonradan klassik ədəbiyyatda "Leyli və Məcnun", "Fərhad və Şirin", "Yusif və Züleyxa", "Vərqa və Gülşa" kimi möhtəşəm əsərlərin yazılmasına səbəb olmuşdur. Təsəvvüf ədəbiyyat da bu mövzunu mənimsəmiş və eşq motivinin özünəməxsus inkişafı üzərində formalaşmışdır:

*Kim canını işk ile diri ede,*
*Hem nürindan bu karanlık gide.*
*Kim ki, canını eşq ilə diri edər,*
*İçinə nur dolar, qaranlıq gedər [2, s.22].*

**Nəticə.** Ümumiyyətlə, mistik təfəkkürdə eşq insanı müqəddəs bir yolçuluğa aparan qüdsi bir sirr kimi qəbul edilir. Eşq çox böyük və bütöv bir məfhumdur ki, onun sonsuz şaxələri var və ana xətti, məğzi tanrıya yönəlmişdir. Hətta sufi anlama görə, məhəbbət insanın fiziki varlığı üçün vacibdir, yəni insanı məhəbbətlə, ilahi eşq eyni kökə yüklənmişdir. Lakin bütün mütəsəvvüf şairlərin düşündüyü kimi, Sultan Vələd düşüncəsində də eşq hansı məzmun və şəkildə olursa, olsun sonda yalnız bir amala xidmət edir, o, insanı yüksəklərə qaldırıb, Tanrıya qovuşdurur. Bu düşüncədə qəribə bir məqam da izlənir, Tanrıdan başqa kimi sevirsənsə sev, o elə Tanrını sevmək, onun təsəllisini görməkdir. Burada göz önünə yaradan və yaranan məfhumu gəlir. Yəni yaranan Tanrının yaratdığıdır, onundur, onun güzgüsüdür. Eşq anlayışına kənar bir prizmadan baxdıqda isə insan şüurunun formalaşmağa başladığı çağlardan canlılar arasında bir mehri-məhəbbət, mehribançılıq yaradan ülvi hiss kimi görünür:

*Kim sini görü aşik olmaya,*
*Ya eşşekdür, ya ki taşdır, ya ağac [2, s.38].*

Eşq nurdur, o, insanın batini aləmini işıqlandırır, onda yuxarıda sadalanan fəzilətləri aşılayır. Sultan Vələd yaradıcılığında yer alan xalq hikmətləri, folklor motivləri daha qədim, daha ilkin xalq yaradıcılığı ilə səsləşir.

**ƏDƏBİYYAT**


1. Sultan Vələd. İbtidaname. Ankara, Güven matbaası, 1976.
2. Mansuroğlu Mecdut. Sultan Veledin Türkce Manzumeleri. İstanbul, 1958.
3. Корпъ Ф. Древнейший народный стих тюрких племенъ. ЗВОРАО, Спб., 1909.
4. Gülşehri Mantikut Tayr. Tar Kurumu. Ankara, 1957.

5. "Qurani-Kərim". Tərc.ed. Ziya Bünyadov. Bakı, 1991-ci il Əl-Kəhf (Mağara surəsi 18).
6. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, "Yazıçı", 1983.
7. Toplama işi Qarabağ bölgələrindən. Ağdam rayonu. Söyləyəni: Axundova Emeliya Həsən qızı. 76 yaşlı müəllimə.
8. Oğuznamə. Tərc.ed. Samət Əlizadə. Bakı, "Şərq və Qərb", 2006.
9. Atalar sözü. C.Bəydili (Məmmədov). Bakı, "Öndər", 2009.

## CREATIVE ACTIVITY OF SULTAN VALAD IN THE CONTEXT OF TASAWWUF AND FOLKLORE

### Summary

This article deals with an analysis of Sultan Valad's life and works in the context of the folklore traditions. The general impression about the poet is created based on short information concerning the history of writing and the content of his works. The traditions found out in the works of Sultan Valad are analyzed in this article in close connection with folklore and Tasawwuf.

The author prefers to refer on examples provided from Sultan Valad's poems in the Turkish language and to choose and systematize the corresponding folklore motives. The fact implying Sultan Valad's services rendered in direction of establishment and spreading out the sect of Mevlana. Some moments contained in poet's definition of Tasawwuf are involved in the detailed investigation. Spirit and body, their ratio to each other, contradictions and reconciliation include the object of analysis in this article. The final goal of the sect adherer is to reunite with the Truth and the God according to the studies of Tasawwuf. The principle of the Sufi studies, i.e. "the end of the sect follower's life is to reunite with precedence" and other interesting aspects are shed light in this article too.

**Key words:** Sultan Valad, ascetic, vahdati-vujud, mutasavvuf, innocent, mystic, irfani

## ТВОРЧЕСТВО СУЛТАНА ВЕЛЕДА В КОНТЕКСТЕ ТАСАВВУФА И ФОЛЬКЛОРА

### Резюме

В статье исследованы жизнь и творчество Султана Веледа в контексте фольклорных традиций и суфизма. Приведённые краткие сведения о дате сочинения, содержании произведений и о псевдонимах создают общее представление о поэте. Анализировано продолжение традиций в творчестве Султана Веледа, связанных с фольклором и суфизмом.

Приводятся отрывки из стихотворений Султана Веледа на турецком языке, в которых выбраны и систематизированы фольклорные мотивы. Привлечено внимание к активной деятельности Султана Веледа в зарождении и распространении течения мовлави. Анализируются некоторые взгляды поэта относительно сущности суфизма.

В статье исследовано мировидение Султана Веледа в понимании духа относительно тела, их разъединении или слиянии и т.п. Исследованы в творчестве Султана Веледа понятия последователей течения о конечной цели согласно учению суфизма, достижения ими пути к истине и богу.

В статье выявлены и исследованы элементы и мотивы, берущие начало из религиозных легенд и мифологических источников. Кроме этого, к исследованию привлечены народные мудрые изречения и пословицы.

**Ключевые слова:** Султан Велед, аскетичный, вахдати-вуджуд, мутасаввуф, чистый, мистик, ирфан